Respublika çempionatının qalibi:




İdmana dövlət səviyyəsində xüsusi qayğı göstərən Azərbaycan dünya səviyyəli müxtəlif yarışlara ev sahibliyi edir, uşaq və gənclərin bu sahəyə marağının artırılması məqsədilə ötəri müxtəlif layihələr, tədbirlər həyata keçirilir. Fərqli yarışlara qatılaraq uğur qazananlar arasında yalnız peşəkar idmançılar deyil, idmanın müxtəlif növlərinə maraq göstərən məktəblilər, hətta kiçikyaşlı şagirdlər də olur. İdmanla məşğul olan məktəblilərin bir neçəsi bu yaxınlarda keçirilmiş MMA, pankration və qrappling üzrə respublika çempionatında nailiyyət əldə edib. "Azərbaycan müəllimi" həmin şagirdlər, onların valideynləri və müəllimi ilə həmsöhbət olub.

# "Çox vaxt yarışlarda birinci yeri tuturam"

**"Böyüyəndə idman müəllimi olacağam"**

İlk olaraq elə qəhrəmanların özləri ilə danışırıq. Cəmil Məlikov Şuşa rayonu Malıbəyli kənd 1 nömrəli tam orta məktəbin 7, Aylin Məmmədzadə isə 5-ci sinfində oxuyurlar. Hər ikisi sözügedən çempionatın qalibidir. Cəmil yarışda iki idman növü - pankration və qrappling, Aylin isə qaydasız döyüş üzrə birincilik qazanıb.

Onları məşqlərindən ayırıb fikirlərini öyrənirik. Cəmil deyir ki, yarışlara anası və qardaşı ilə gedir. Çempionatda 3 rəqibinə qalib gələrək birinci yerə layiq görülüb: "Böyüyəndə idman müəllimi olacağam. Çox vaxt yarışlarda birinci yeri tuturam, indi də növbəti yarışa hazırlaşıram".

**"Nənəm deyirdi ki, qız uşağısan, idmana getmə, amma indi..."**

Aylinin özü ilə yanaşı, iki bacısı da idmançıdır. Hətta balaca bacısı Nur onunla eyni idman növü üzrə məşqlərə gəlir. Hər ikisi respublika çempionatında uğur qazanıb.

"Böyük bacım idmana gedirdi. Mən də anama idmana getmək istədiyimi dedim, icazə verdi. Mənim idmana getməyimə qarşı ən çox çıxan nənəm idi. Deyirdi ki, qız uşağısan, idmana getmə. Ancaq indi qalib olmuşam. Onlar buna görə sevinirlər".

**"Sağlam gələcək hər bir uşağın haqqıdır"**

Uğurlara doğru yenicə addımlayan şagirdləri haqqında danışan məşqçi-müəllim Sultan Tağızadə




uşaqların qısa müddətdə belə nailiyyət əldə etməsinin böyük nəticə olduğunu deyir:

"Şagirdlərim təkcə respublika çempionatında deyil, digər bir neçə yarışda da iştirak edərək qələbə qazanıblar. Hədəfimiz beynəlxalq səviyyəli turnirlərdə iştirak edib qalibiyyətimizi saxlamaq və daha da artırmaqdır. İdman yarışları təkcə çempion, qalib olmaq üçün vacib deyil, eyni zamanda, gələcək nəslin sağlam yetişdirilməsi üçün lazımdır. Sağlam gələcək hər bir uşağın haqqıdır".

**"Qardaşlarının medallarından, təltiflərindən həvəsləndi"**

Respublika çempionatında Cəmil və Aylinlə birgə Nur Məmmədzadə, Zəhra Hüseynova və İsmayıl İsrafilov da uğur qazanıblar.

Bu qalibiyyətə sevinən, uşaqların özü qədər həyəcan keçirən, onlarla birgə yarışlara qatılan valideynləri də dinlədik.

Çempionatı ikinciliklə başa vuran İsmayıl İsrafilovun anası Elnarə Kazımova övladlarının uşaqlıqdan idmana həvəsinin olduğunu bildirir: "İsmayıl Xankəndi şəhəri Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbdə oxuyur. Özündən böyük qardaşları başqa idman növü ilə məşğul olurdular. Onların medallarından, təltiflərindən həvəsləndi. Amma tam fərqli idman növünü seçdi. Çox həvəsli idi, beləcə, biz də razılaşdıq. İsmayıl yaşının, hazırlıq müddətinin az olmasına baxmayaraq, yaxşı nəticələr əldə edir. Ümid edirəm ki, nəticələri daha da yaxşılaşacaq, buna inanırıq".

**"Qızımı idmanda irəli aparan müəllimi olub"**

Çempionatda iki övladı uğur qazanan Əfsanə Cəfərova da bütün yarışlara övladları ilə birgə gedir: "Aylinin ilk məşqinə gedəndə keçirdiyim həyəcanı hələ də unutmuram. İndi isə qələbələrinin şahidiyəm. Mən və bacısı Aylinə hər zaman dəstək göstərmişik, amma onu idmanda irəli aparan müəllimi olub. Qatıldığı yarışların hər birindən nailiyyətlə geri dönüb, qara kəmər, kubok sahibidir. O, təkcə ölkəmizdə deyil, xarici səfərlərində də qalibiyyət qazanıb. Aylinlə yanaşı, Nurun da turnirlərdə qalibiyyətini izləyirik. Hər ikisinin sevincini, həyəcanını yaşamaq ayrı bir hissdir. Nur hələ balacadır deyə seçim etməyib, amma Aylin özünü gələcəyin polisi olaraq görür. Biz də valideyni olaraq hər zaman onların yanındayıq, seçimlərinə dəstək veririk".

**Rəmziyyə HƏSƏNOVA,**
*Qarabağ və Şərqi Zəngəzur üzrə regional təmsilçi*